# YUBİLEY MÖVSÜMÜNÜN SON TAMAŞASI TƏQDİM OLUNDU

***Sumqayıt teatrı özünün 50-ci mövsümün son tamaşasını - tanınmış dramaturq Əli Əmirlinin şəhərin 70 illik yubileyinə həsr etdiyi "Sevgilim Sumqayıt" lirik-psixoloji dramını tamaşaçılara təqdim edib.***



Teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov çıxışında xatırladıb ki, ötən payız Prezident İlham Əliyevin imzaladığı sərəncamla gənclik şəhərindəki sənət məbədinin 50 illik yubileyi təntənə ilə qeyd edilib, kollektivin bir sıra üzvü təltif olunub. Bu ilin yazında isə mədəniyyət və incəsənət xadimlərinin sosial vəziyyətinin yaxşılaşdırılması, teatrların maddi-texniki bazasının genişləndirilməsi ilə bağlı atılmış mühüm addımlara görə dövlət başçısına kollektiv adından dərin minnətdarlığını bildirib. O, yubiley mövsümündə Sumqayıt teatrında bir sıra maraqlı tamaşanın oynanıldığını, şəhər tədbirlərində aktyorların fəal iştirak etdiyini vurğulayıb.

Teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov repertuara daxil edilən "Tıq-tıq xanım", "Danışan gəlincik", "Dəfn edilməmiş ölülər", "Mamoy kişinin yuxuları", "Sevgilim Sumqayıt" kimi uğurlu tamaşaların səhnə təcəssümündən danışıb, aktyorların yaradıcılıq potensialının daha böyük uğurlara vəsilə olacağını bildirib.

Daha sonra "Sevgilim Sumqayıt" tamaşası oynanılıb. Elşən Sərxanoğlunun quruluşçu rəssam olduğu tamaşada teatrın aktyorları - Əməkdar artistlər Fəranə Musayeva, Növrəstə Həşimova, Sədaqət Nuriyeva, İlahə Səfərova, Cəlal Məmmədov, Xatirə Süleymanova, aktyorlar Kamran Muradlı, Şəmistan Süleymanlı, Şəhla Məmmədova, İlahə Səfərova, Rövşən Əsgərov, Elay Xasıyev, Yeganə Məmmədvəliyeva, Vəfa Qurbanova, Şəms Abdullayeva və Gülnarə Qədirova çıxış ediblər.

Ertəsi gün düzənlənən təqdimetmə mərasimində Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov, tanınmış aktyor, Xalq artisti Valeh Kərimov, teatrla dostluq əlaqələri saxlayan "Bus Media" Reklam Agentliyinin təmsilçisi, yaradıcı heyətin üzvləri və başqaları ürək sözlərini söyləyiblər. Əlvan musiqi nömrələri səsləndirilib. Sonda mövsüm ərzində fərqlənən kollektiv üzvlərinə çeşidli nominasiyalar üzrə mükafatlar verilib. Qeyd edək ki, tədbirdə "Teatrın dostu" nominasiyasında "Xalq qəzeti"nin bölgə müxbiri Əli Nəcəfxanlı da vardır.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2019.- 23 iyul.- S.11.